YASAR QURBANOV
“İSLAM NURU” KITABINDAN
WWW.ISLAMEVI.AZ
YASARESERI@ISLAMEVI.AZ

# NAMAZ İSLAMIN RUKNUDUR

Əvvəldə islam və imanının rüknlərindən və xüsusi ilə də Allahın təkliyindən, yalnız Onun ibadətə layiq olmasından, islamın inanc təməli olan **“Lə iləhə illəllah, Muhəmmədən rəsulullah”** şəhadətindən bəhs etdik. Çünki dini, ibadəti Allaha məxsus etmək namaz qılmaqdan öncədir: **«Halbuki onlara əmr edilmişdi ki, Allaha- dini yalnız Ona məxsus edərək, batildən haqqa** (islama) **dönərək- ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru– düzgün din budur!»** («əl-Bəyyinə», 5).

Namaz islamın şəhadətdən sonra ən mühüm dayağıdır.

İbn Ömər (r.a.) Peyğəmbərin (s.a.v.) belə dediyini rəvayət edir: *«İslam beş dayaq üzərində bina edilmişdir: Allahdan başqa ibadət haqqı olan ilahın olmamasına və Məhəmmədin Onun elçisi olmasına şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq!»* (hədisi Buxari və Müslim rəvayət etmişdir).

Namaz Uca Allahın əmridir:

«(Müsəlmanların namazı kimi) **namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!»** («əl-Bəqərə», 43 və ya bax: «əl-Bəqərə» 83, 110; «İbrahim», 31; «əl-Həcc», 78).

**«Həmçinin: "Namaz qılın, Allahdan qorxun, hüzuruna toplanacağınız məhz Odur!"»** («əl-Ənam», 72).

Namaz Uca Allaha itaətdir: **«**(Fərz, vacib) **namazlara,** (xüsusi ilə) **orta namaza** (günortadan sonrakı əsr namazına, ikindi namazına) **riayət** (əməl) **edin və Allaha itaət üçün ayağa qalxın** (namaza durun)» («əl-Bəqərə», 238).

Namaz qurtuluşa, nicata vəsilədir: **«Ey iman gətirənlər!** (Namaz qıldıqda) **rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, bəlkə nicat tapasınız!»** («əl-Həcc», 77).

Namaz doğru yolda olmanın əlamətidir: **«O kəslər ki, namaz qılar, zəkat verər və axirətə tam yəqinliklə inanarlar. Onlar öz Rəbbi tərəfindən** (göstərilmiş) **doğru yoldadırlar…»** («Loğman», 4-5).

Namaz qılana cənnət müjdəsi, Allah mükafatı vardır: **«Namaz qılanlar istisnadır. O kəslər ki, daim namaz qılarlar; … Və o kəslər ki, namazlarını** (layiqincə) **hifz edərlər- məhz onlar cənnətlərdə ehtiram olunacaq kimsələrdir!»** («əl-Məaric», 22-23, 34-35 və ya bax: «əl-Bəqərə», 277; «ət-Tövbə», 112; «əl-Həcc», 34-35, 41; «ən-Nəml», 2-3; «Fatir», 29-30; «əş-Şura», 36-38 ).

Namaz Allahdan kömək istəmək üçün vasitədir:

«(Müsibət vaxtında) **səbr və namaz qılmaqla** (Allahdan) **kömək diləyin!»** («əl-Bəqərə», 45 və ya bax: «əl-Bəqərə»,153).

Namaz möminliyin əlamətidir: **«Möminlər yalnız o kəslərdir ki, … namaz qılar və verdiyimiz ruzidən sərf edərlər. Onlar həqiqi möminlərdir…»** («əl-Ənfal», 2-4 və ya bax: «ət-Tövbə», 71; «ən-Nəml», 2-3).

Namaz Allahın rəhmətini qazanmağa səbəbdir: **«Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, bəlkə, sizə rəhm olunsun!»** («ən-Nur», 56).

Namaz insanı pis əməllərdən çəkindirir: «(Ya Məhəmməd!) **Qurandan sənə vəhy olunanı oxu və** (lazımınca) **namaz qıl. Həqiqətən, namaz** (insanı) **çirkin və pis əməllərdən çəkindirər»** («əl-Ənkəbut», 45).

Namaz qılmamaq təhlükəlidir, şirkə apara bilər: «(Ya Məhəmməd! Sən və ümmətin) **tövbə edərək Ona tərəf dönün, Ondan qorxun, namaz qılın və müşriklərdən olmayın!»** («ər-Rum», 31).

Namaz hər bir atanın öz övladına etməli olduğu mühüm nəsihətidir, nidasıdır: **«Oğlum! Namaz qıl,** (insanlara) **yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə»** («Loğman», 17).

Namaz hər bir ailə başçısının öz əyalına edəsi əmridir: **«Əhlinə namaz qılmağı əmr et, özündə ona** (namaza) **səbrlə davam et…»** («Ta Ha»,132).

Namaz Allahın haqqıdır, Onun üçün qılınır: **«De: "Mənim namazım da, ibadətimdə, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür…"»** («əl-

Ənam»,162; və ya bax: «əl-Kövsər», 2).

Namaz günahları yuyar: **«…Həqiqətən** (beş vaxt namaz kimi) **yaxşı əməllər pis işləri** (kiçik günahları) **yuyub aparır…»** («Hud», 114).

Namaz qılana mane olana Qüdrətli Allah cəhənnəm əzabını vəd edir: **«Gördünmü o kimsəni ki, mane olur, bir bəndəyə namaz qıldığı vaxt? … Məgər bilmir ki, Allah görür?! Yox, yox! Əgər son qoymasa, and olsun ki, Biz onu kəkilindən yapışıb** (Cəhənnəmə) **sürükləyəcəyik …»** («əl-Ələq», 9-19).

**Namaz ibadətdir.**

Bütün aləmlərin Xaliqi olan Tanrımız bizə saysız-hesabsız nemətlər vermişdir. Bu nemətlərə görə Yaradana həmd, şükr və tərif etmək, Onun əmrlərini yerinə yetirmək və yasaqlarından çəkinmək borcumuzdur.

Allahın əmr etdiyi kimi bu borcu ödəməyə, Onun razı qaldığı əmələ və ya sözə adına **"ibadət"** deyilir.

İbadət yalnız Allaha və ancaq Allah əmri olduuu üçün edilir. Allahdan başqa ibadət ediləcək həqiqi bir ilah yoxdur.

İbadət Allahın əmr etdiyi və Rəsulunun **-səllallahu aleyhi və səlləm-** kimi edilir. Azaldılıb çoxaldıla bilməz. Heç bir zaman və heç bir surətdə dəyişdirilə bilməz.

İbadət imanımızın qoruyucusudur. İbadətsiz iman təhlükədədir: **«Rəbbiniz buyurdu: "…Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər!"»** («əl-Mumin», 60).

İslamda ibadət üç yolla olur:

1. Bədənlə : namaz, oruc kimi. Başqa birisi vəkil ola bilməz.

2. Mal ilə : zəkat kimi.

3. Həm mal və həm də bədənlə: Həcc ibadəti kimi.

Namaz ibadətlərin ən əzəmətlisi, dinin dirəyidir. Hər gün beş vaxtda qılınır. Vaxtlarına görə bunlardır:

**1. *Sübh*** (2 rükət): **«… Sübh namazını da qıl».** («əl-İsra», 78, və ya bax: «Hud», 114; «ər-Rum», 17).

**2. *Zöhr***, yəni günorta (4 rükət): **«…Günortadan** (gün batmağa meyl edəndən) **gecənin qaranlığınadək** (günorta, ikindi, axşam və gecə) **namaz qıl …»** («əl-İsra», 78 və ya bax: «Hud», 114; «ər-Rum», 18).

**3. *Əsr***, yəni ikindi (4 rükət): **«Namazlara,** (xüsusi ilə) **orta namaza riayət edin və Allaha itaət üçün ayağa qalxın»** («əl-Bəqərə», 238 və ya bax: «əl-İsra», 78; «Hud», 114; «ər-Rum», 18).

**4. *Məğrib***, yəni axşam (3 rükət): **«Elə isə axşam-səhər Allahı təqdis edib şəninə təriflər deyin!** (Axşam, gecə və sübh namazlarını qılın)**»** («ər-Rum, 17 və ya bax: «əl-İsra», 78; «Hud», 114; «əl-İsra», 78).

**5. *İşa***, yəni gecə (4 rükət): «…**gecənin qaranlığınadək** (günorta, ikindi, axşam və gecə) **namaz qıl …»** («əl-İsra», 78 və ya bax: «Hud», 114; «ər-Rum», 17).

Hər namaz öz vaxtında qılınmalıdır: **«…Çünki namaz möminlərə müəyyən vaxtlarda fərz edilmişdir.»** («ən-Nisa», 103). Həmçinin «əl-Muzzəmmil» surəsinin

20-ci ayəsinin təfsiri gecənin bir hissəsi (üçdə ikisini, yarısını və ya üçdə birini) qılınan namazı rüsxət verərək, kün ərzində beş vaxt namazın əmr olduğunu bildirir: **«… O sizin bunu** (gecə vaxtlarını və saatlarını) **ölçüb saya bilməyəcəyinizi** (yaxud bütün gecəni oyaq qalıb ibadət edə bilməyəcəyinizi) **bildiyi üçün sizi əfv etdi** (rüsxət verərək gecə durub namaz qılmağı siz möminlərə vacib etmədi, fərz kimi gün ərzində beş vaxt namazı buyurdu)**…»** («əl-Muzzəmmil», 20).

Müsəlman və ya mömin namaza qarşı səhlənkar olmamalı və namazında riyakarlıqdan uzaq olmalıdır: **«Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər** (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar). **Onlar** (namazlarında) **riyakarlıq edər»** («əl-Maun», 4-6).